# 102 YAŞLI ORDUMUZ: CƏBHƏDƏN-CƏBHƏYƏ...

XX əsrin tarixə qızıl hərflərlə yazılmış 18-ci ilinin 28 mayında Şərqdə ilk demokratik respublika – Azərbaycan Xalq Cümhuriyyətinin elanından sonra yeni hökumətin qarşısında duran əsas və təxirəsalınmaz vəzifələrdən biri milli ordu quruculuğu idi. Çünki ölkə dörd bir yandan xarici müdaxiləçilərlə əhatələnməkdən əlavə, daxildə də müstəqilliyə qənim kəsilmiş bolşevik tör-töküntüləri və Qarabağı qoparmağa hazır nankor erməni separatçıları meydan sulayırdı. Azərbaycanın İstiqlal Bəyannaməsində sözügedən məsələ öz əksini tapmış, Silahlı Qüvvələrin yaradılması zərurəti qeyd edilmişdi. Hökumətin ilk kabinəsində müdafiə naziri vəzifəsinə general Xosrov bəy Sultanov təyinat alıb. Cümhuriyyətin ilk dövrlərində hərbi kontingent 600 nəfərlik könüllü dəstələrdən ibarət idi. AXC Nazirlər Şurasının 1918-ci il 26 iyun tarixli qərarı ilə keçmiş Tatar süvari alayının əsgərlərindən formalaşdırılmış və general Əliağa Şıxlinskinin rəhbərlik etdiyi Müsəlman korpusu əsasında ilk ordu hissəsi - 5000 nəfərlik şəxsi heyətə malik "Əlahiddə Azərbaycan korpusu" yaradılıb. İyulun 11-də hökumət fərmanı ilə hərbi səfərbərlik elan edilib, 1894-1899-cu illərdə doğulmuş bütün müsəlman vətəndaşları hərbi qulluğa çağırılıb...

...Respublikanın sovetlərin tərkibində olduğu vaxtlarda qəhrəman oğul və qızlarımız əmək cəbhəsi ilə yanaşı, hərbdə də əsl fədakarlıq



* * *

*Səməd bəy Mehmandarov Hərbi nazir olarkən ilk verdiyi əmrlərdən biri, Azərbaycan ordusu əsgərinin ana dilində salamlaşması idi. Əmrdə qeyd edilirdi: "Sırada, eləcə də sıradan kənarda əsgərlərin türkcə salamlaşması – bir sözlə "salam", cavabı isə "əleyküm-salam" olmasını bütün zabitlərə əmr edirəm. Tәltif zamanı əsgərə deyilməlidir: "Mərhəba!", əsgər cavab verməlidir: "Çox sağ ol!".*

*S.Mehmandarov ordunu bolşeviklərin zərərli təbliğatından qorumağa çalışır, bununla əlaqədar Nazirlər Şurasının sədri, eyni zamanda Daxili işlər naziri N.Yusifbəylini məlumatlandırırdı: "tərəfimdən belə bir məlumat alınıb ki, Bakıda müsəlmanlardan ibarət xeyli bolşevik təmayüllü şəxs hər vasitə ilə kazarmalara daxil olmağa, təbliğatla ordunun əsaslarını sarsıtmağa və bolşevik ideyalarını aşılamağa can atırlar. Bakıda yerləşən qoşunlar, xüsusilə piyada qoşunları hərbi tərbiyənin əsaslarını tamamilə mənimsəməmişlər və intizam o qədər də möhkəm deyil, buna görə də mən qoşunları Bakıya gətirmək istəmirdim. Bu gənc qoşunları bolşeviklərin dağıdıcı təbliğatından qorumaq üçün Zati-Alilərinizdən kazarmaların yerləşdiyi rayonlara kənar şəxslərin icazəsiz daxil olmasına imkan verilməməsi məqsədi ilə qoşunların yerləşdiyi rayonlarda polis nəzarətinin tətbiqinə sərəncam verməyinizi xahiş edirəm..."*



Səməd bəy Mehmandarov

## SÖZÜGEDƏN SAVAŞDA AZƏRBAYCANIMIZ DA KEÇMİŞ İTTİFAQIN BİR ÜZVÜ KİMİ, ÜMUMİ DÜŞMƏNLƏ - ŞƏRQƏ DOĞRU ŞIĞIYAN NASİST CƏLLADLARI İLƏ ÜZBƏÜZ DAYANDI

nümunələri göstərmiş, qarşıya çıxan problemlərin həllinə öz möhtəşəm töhfələrini vermişlər. İkinci Dünya müharibəsində faşizm üzərində tarixi qələbə də bu qəbildəndir. Yüz milyonlarla insanın fiziki cəhətdən məhvi, sağlamlığını itirməsi, əsir alınması, itkin düşməsi, aclığa, xəstəliyə, səfalətə düçarlığı, bütün Avropanın dağılması ilə nəticələnən 6 illik məşum, faciələrlə dolu savaşın başlanma səbəbləri, 1941-ci il, iyunun 22-dən etibarən bizlərdən ötrü Vətən müharibəsi mərhələsinə keçməsi, qələbəni təmin edən səbəblər barədə fikirlər birmənalı deyil. Amma danılmaz bir həqiqət var ki, sözügedən savaşda Azərbaycanımız da keçmiş İttifaqın bir üzvü kimi, ümumi düşmənlə - Şərqə doğru şığıyan nasist cəlladları ilə üzbəüz dayandı. İgid xalqımız ön və arxa cəbhələrdə canını, qanını əsirgəmədən çalışdı, vuruşdu, Bakı "Qəhrəman şəhər" statusuna layiq görülməsə belə, qələbədə böyük rol oynayan nefti, bütün ölkə ərzaq məhsullarını verdi, bu ərazilərə



Masey Aleksandroviç Sulkeviç

köçürülən xəstələrə, yetimlərə sahib çıxdı, alimlərimiz hərbi texnikanın yanacağını donmağa qoymayan kəşflərə imza atdılar... Müharibənin ilk günündən silaha sarılan 600 min Vətən övladı – şücaətli oğul və qızların tən yarısı geri qayıtmadı. 123 nəfər ən yüksək mükafat – Sovet İttifaqı Qəhrəmanı fəxri adı (general-mayor Həzi Aslanov iki dəfə), 178 min döyüşçümüz müxtəlif orden və medallarla təltifləndilər. O dövrdə qələbənin əsas təminatçısı sayılan, bütün SSRİ üzrə neftin 70, benzinin 80, mühərrik yağının 90 faizi zəhmətkeş neftçilərimiz tərəfindən göndərilirdi. Bir sözlə, özgə torpaqlarını ilhaqa məruz qoyub qurduqları rejimdə satqın faşist tulası Qaregin Nijdeyə abidə ucaldanlardan, babaları həmin xəyanətkar, əclaf qruplaşmalara yaltaqlananlardan fərqli olaraq, tarixin də, sülhsevər xalqların da qarşısında üzümüz ağ, alnımız açıqdır. Doğrudur, ötən əsrin 92-ci ilində hakimiyyətə gələn qüvvələrin 9 may – Qələbə Gününün ləğvi az sayda qalan və ömürlərinin ixtiyar çağlarını yaşayan veteranlara böyük mənəvi-psixoloji zərbə vurdu. Lakin Ümummilli lider Heydər Əliyev yenidən ölkə rəhbərliyinə qayıtdıqdan sonra Böyük Vətən müharibəsi iştirakçılarının hüquqlarını bərpa etdi, onları "xalqımızın qızıl fondu" adlandırdı. Qafqazdan Berlinədək şanlı döyüş yolu keçmiş veteranlarımız və ailələrinin sosial-tibbi problemləri cənab Prezident İlham Əliyevin və birinci vitse-prezident Mehriban xanımın daim diqqət mərkəzindədir - elə Qələbə bayramı ərəfəsində də onlara maddi yardım göstərildi.

Faşizm üzərində qələbənin 75 illik yubileyi münasibətilə iyunun 24-də Rusiyanın paytaxtı Moskvada keçirilən Qələbə paradında hərbi kontingentimizin iştirakı isə tarixi keçmişə sayğıdan və dünya birliyi arasında sülhsevər imicimizdən xəbər verir. Həmin tədbirə 13 ölkədən 14 minə yaxın hərbçi qatılmışdı. Azərbaycanı Müdafiə naziri, general-polkovnik Zakir Həsənovun rəhbərliyi ilə nümayəndə heyəti təmsil edirdi. İlk olaraq ordumuzun 75 hərbçisindən ibarət dəstənin hərbi marşla tribunaların önündən keçidi baş tutdu. Rusiya prezidenti Vladimir Putin hərbçiləri salamlayanda da ilk olaraq Azərbaycanın adını çəkdi. Paradın aparıcısı Böyük Vətən müharibəsi cəbhələrində 600 mindən çox azərbaycanlının döyüşdüyünü, digər qürurdoğurucu statistik rəqəmləri xatırlatdı.

Respublikamız ikinci dəfə dövlət müstəqilliyini bərpa etdiyi 1991-ci ilin 18 oktyabrından sonra müxtəlif təkliflər səsləndirilsə də, məhz həmin tarix – 26 iyun şücaətli ordumuzun təvəllüd günü kimi qəbul olundu. Əsrin əvvəllərindəki kimi, Azərbaycan gəncliyinin üzərinə yenə böyük vəzifə və məsuliyyət düşdü. Çünki zaman dəyişsə də

* * *

*Cümhuriyyət Silahlı Qüvvələrinin Baş Qərargah rəisi Masey Aleksandroviç Sulkeviç ordunun milliləşməsinə böyük əhəmiyyət verirdi. Onun 1919-cu ilin avqustun 10-da verdiyi 561 saylı əmrdə maraqlı qeydlər vardır. Əmrdə göstərilir ki, Azərbaycan Ordusunun piyada və süvari alayları, eləcə də ayrıca batalyonları, hərbi məktəbləri üçün hazırlanan bayrağın bir tərəfində "Azərbaycan", digər tərəfində isə "Kömək Allahdandır, qələbə yaxındır!" sözləri yazılmalıdır. M.Sulkeviçin Qarabağın general-qubernatoru X.Sultanova 7 sentyabr 1919-cu il tarixində göndərdiiyi məktubda ermənilərin Qarabağın tam şəkildə itirilməsi ilə barışa bilməyəcəyi, bunun üçün bütün imkanlardan istifadəyə çalışacağı bildirilirdi. Bununla əlaqədar o, ermənilərə nazarət məqsədi ilə Xankəndidəki, gələcəkdə isə Gorusdakı qarnizonları tam tərkibdə öz yerlərində saxlamağı tələb edirdi.*



Xosrov bəy Sultanov



* * *

*Xosrov bəy Sultanov Qarabağın general-qubernatoru vəzifəsinə başlayarkən xalqa müraciətindən (1919-cu ilin 11 fevralında "Azərbaycan" qəzetində çap olunub):*

*"Azərbaycan hökumətinin yanvar ayı qərarı ilə Zəngəzur, Şuşa, Cavanşir və Cəbrayıl qəzaları xüsusi general-qubernatorluğa ayrılmışdır. Bu fövqəladə tədbirlər fövqəladə vəziyyətdən irəli gəlmişdir. Azərbaycanın təqribən yarısında, onun ən yaxşı hissəsi – 4 qəza artıq bir ilə yaxındır ki, anarxiya ucbatından dağılır. Şəxsi firavanlığı yüksək ideal sayan məsuliyyətsiz elementlərin rəhbərliyi altında olan bandalar diyarı viranə qoyur; kəndləri yandırır, əhalini qırır, on minlərlə yurdsuz-yuvasız qadın və uşaq qaçqın düşmüşdür, yuxarıda göstərilən elementlər milli ədavət yayırlar. Əhalidən ümumi siyasi vəziyyət gizlədilir. Bu şəxslər öz şəxsi mənafelərini güdür, öz cəhdlərini partiya ideya forması donuna salırlar.*

*Öz həyatını xalqa xidmətə sərf etmiş ictimai xadim kimi mən milli mənsubiyyətindən asılı olmayaraq hamıya eyni münasibət göstərməyi, ciddi ədalət və qanunçuluq mövqeyində dayanmağı hakimiyyətin borcu sayıram. Azərbaycanın müstəqilliyi, ərazi toxunulmazlığı, şəxsiyyətin ciddi məsuliyyəti və əmlak toxunulmazlığı – diyarın həyatı bu əsaslar üzərində qurulacaqdır".*






suverenlik yollarında kövrək qədəmlərini atan Cümhuriyyət varisinin uğurlarını imperialist qüvvələrin gözü götürmürdü. Hələ milli-azadlıq mübarizəsinin ilk dönəmlərində ölkəmiz süni şəkildə qondarılmış Qarabağ konfliktinə cəlb edilmişdi. Minlərlə Vətən övladı torpaqlarımızın bütövlüyü uğrunda savaşda, eləcə də daxili düşmənlərin zərərsizləşdirilməsində canından keçdi, sağlamlığını itirdi... İgid hərbçilərimiz atəşkəs dövründə ərazilərimizin müdafiəsində dayandılar, ordu quruculuğu təkmilləşdi, modern silah-sursat alındı... 1994-cü ildə Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndi, 2017-ci ildə Lələtəpə yüksəkliyi, 2018-ci ildə Naxçıvan Muxtar Respublikası Şərur rayonunun Günnüt kəndi, "Ağbulaq" yüksəkliyi, Qızılqaya və Qaraqaya dağları azad olunub, Dərələyəz mahalının Arpa kəndi nəzarətimizə keçib. Əks-hücum nəticəsində, ümumən 11000 hektarlıq ərazi azad olunub. Əməliyyat Azərbaycan Silahlı Qüvvələrinə İrəvan-Yegeqnadzor-Gorus-Laçın-Xankəndi avtomobil yoluna nəzarət imkanı verib...

*P.S. Zəfər dolu Aprel savaşından keçən müddət ərzində erməni təxribatı nəticəsində gündəlik, günaşırı pozulan atəşkəs sükutu iyulun 12-də Tovuz istiqamətində düşmənin artileriya mərmiləri ilə tamamilə alt-üst oldu. Hər an, hər yerdə belə qəfil və xain hücumlara hazır Azərbaycan ordusu əsil qəhrəmanlıq nümunəsi göstərərək rayonun Ağdam kəndi yönündəki mövqelərdə cavab atəşi ilə işğalçıları susdurdu. Bir neçə gün davam edən qarşıdurma nəticəsində qarşı tərəf 4 il öncəki aprel günlərində olduğu kimi, rüsvayçı məğlubiyyətdən xilas yolları aramağa başladı və vasitəçi axtarışına çıxdı...*

*Dövlətimiz və xalqımız necə ki, cəbhədə, diplomatiya sahəsində də uğurlu addımlar atdı. Dünyanın əksər ölkələri Azərbaycanın ədalətli mövqeyini dəstəkləyərək təcavüzkarı qınadılar. Ermənistanın köməyinə heç üzvü olduğu Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı da gəlmədi...*

*Təbii ki, qələbə qurbansız olmur... İyul savaşında da Vətənin igid övladları – qorxmaz zabit, gizir və əsgərlərimiz şəhidlik zirvəsinə yüksəldilər. General Polad Həşimov, polkovnik İlqar Mirzəyev, mayor Namiq Əhmədov, gizir Yaşar Babayev, əsgər Elçin Mustafazadə və başqaları xalqın ürəyində və yaddaşında daim yaşayacaqlar.*

*Həmin ağır günlərdə ölkəmizdə ayrılmaz vətəndaş-dövlət birliyi özünü göstərdi, insanlar küçələrə çıxaraq cənab Prezidentə dəstək nümayiş etdirdilər və işğaldakı bütün torpaqların azadlığı üçün silaha sarılmağa hazır olduqlarını bildirdilər. Şübhəsiz ki, belə vəhdət, cəsarət, coşqu sayəsində tezliklə doğma Qarabağımız və ona bitişik rayonlarda Azərbaycanın üçrəngli bayrağı dalğalanacaq!* ❖

**Qurban**